

# Azərbaycan düşmənin layiqli cavabını verir

***Gün kimi aydındır ki, beynəlxalq hüquqa görə, Ermənistan başqa bir suveren dövlətin – Azərbaycanın ərazilərinə soxularaq oranı işğal edib. Bu faşist rejiminə iki ildən bəri başçılıq edən "küçə diplomantı" Nikol Paşinyan isə həyasızcasına "Dağlıq Qarabağ Ermənistandır" deməklə münaqişənin həllü üzrə bütün beynəlxalq səyləri puça çıxardı. Buna qəti şəkildə "dur!" deyilməsi, təbii olaraq, özünü çox gözlətmədi.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, Ermənistan təcavüzkar niyyətlərini davam etdirib, bu ölkənin bədnam baş naziri özünün ağılsız hərəkətləri, əsassız iddiaları ilə sülh danışıqlarını pozub və beləliklə də münaqişənin nizamlanması proseslərinin iflic vəziyyətə düşməsinə səbəb olub. İndi buyursun, populizminin, diletant çıxışlarının acısını çəksin.

Sentyabrın 27-si səhər növbəti dəfə, həm də bütün cəbhəboyu atəşkəs rejimini pozan erməni silahlı birləşmələri həm ordumuzun mövqelərini, həm də dinc əhalini hədəfə götürdülər. Buna adekvat cavab verildi və artıq neçə gündür ki, təmas xətlərində silahlı qarşıdurma səngimək bilmir. Azərbaycan dövlətinin dayağı olan milli ordumuz tərəfindən layiqli cavabını alan mənfur düşmən bütün parametrlər üzrə böyük itkilərlə üzləşir, 90-cı illərin əvvəllərində zəbt etmiş olduğu yaşayış məntəqələrini və mühüm strateji yüksəklikləri əldən verir. Düşmənin çoxsaylı döyüş texnikası, silah anbarları məhv edilir.

"Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramındakı çıxışında Prezident İlham Əliyev bildirib ki, ermənilərin başladıqları hərbi təxribat nəticəsində döyüş mövqelərimiz və cəbhəyanı yaşayış məntəqələrimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Hərbi qulluqçular və dinc əhali arasında həlak olanlar, yaralananlar olub. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Odur ki, bu gün fəal döyüş əməliyyatları aparılır: "Azərbaycan danışıqlarda daim konstruktiv mövqe nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən, son iki ildə mən dəfələrlə və başqa məsul şəxslər səviyyəsində bəyan etmişəm ki, biz illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik, son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik".

Lakin Ermənistanın baş naziri həyasızcasına, açıq-aşkar bəyan edir ki, Qarabağ erməni torpağıdır. Belə olan halda hansı danışıqlar prosesindən və irəliləyişdən söhbət gedə bilər? Ermənistan bilərəkdən danışıqları pozur, qəbuledilməz tələblər irəli sürür, təxribatlar törədir. Məqsədi status-kvonu saxlamaqdır. Bu isə mümkün deyil, absurddur. Yəni işğal altında olan ərazilər mütləq Azərbaycana qaytarılmalıdır.

ATƏT-in Minsk qrupunun keçmiş həmsədri Riçard Hoqland müşaviri olduğu Xəzər Siyasi Mərkəzi tərəfindən yayımlanan məqalədə bildirib: "...Sülh çağırışları hələlik nəticəsiz qalır. Hərbi insidentlər Qarabağdakı təmas xəttində deyil, birbaşa Ermənistan – Azərbaycan sərhədində, Tovuz rayonu istiqamətində başlanması ilə qeyri-adi olub. İkinci insident isə sentyabrın 21-də baş verib və nəticədə, Azərbaycan Ordusunun çavuşu həlak olub". Bütün bunlar münaqişəyə üçüncü tərəflərin də cəlbinə nail olmaq məqsədi güdürdü.

ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Robert Sekuta isə deyib ki, mövcud vəziyyətdə münaqişəyə kimlərinsə xarici müdaxiləsi təhlükəli ola bilər. O, KİV-də İrandan Ermənistana mümkün hərbi texnika tədarükü ilə bağlı xəbərlərin olduğunu xatırladıb. Məqalədə, həmçinin bildirilib ki, Dağlıq Qarabağın və ona bitişik ərazilərin işğalı Avropada sülhə və təhlükəsizliyə xələl gətirir. Azərbaycan mühüm tranzit mərkəzi olduğuna görə, bu bölgəyə yönələn təhdidlər siyasi və iqtisadi sabitliyə zərbədir. Rusiyadan Ermənistana yeddi hərbi texnika partiyasının ixrac olunması da münaqişə alovunu gücləndirir. Ermənistana göndərilən hərbi yüklər işğalçı ölkənin silah arsenalının müxtəlifliyini artıran ən müasir cihazları əhatə edib.

Azərbaycan rəhbəri orduda Suriyadan olan muzdluların iştirak edib-etməməsinə də çox ciddi arqumentlərlə inandırıcı cavab verib: "Bu, növbəti feyk-nyusdur. Suriyadan heç bir muzdlu yoxdur... Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var... Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin". Təkzibolunmaz fakt isə budur ki, məhz Ermənistan illərdir Azərbaycanın işğal olunmuş ərazilərinə muzdluları gətirib yerləşdirir və döyüş əməliyyatlarına cəlb edir. Münaqişənin hazırkı aktiv fazasında da faşist xislətli nankor qonşumuz həmin muzdlulardan, terrorçulardan geniş istifadə edir.

Azərbaycanın haqq işi tərəqqipərvər bəşəriyyət tərəfindən dəstəklənir. Bir çox ölkələr – Türkiyə, Pakistan, Əfqanıstan və digərləri haqq işimizi obyektiv şəkildə müdafiə edirlər. Bütün beynəlxalq ictimaiyyət Ermənistanın terrorçu əməllərinə adekvat cavab verməli, 30 ildən bəri gözlənilən haqq-ədalətin bərpasına tərəfdar olmalıdır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 2 oktyabr.- S.5.